8 avqust 2017-ci il, çərşənbə axşamı XALQ QƏZETİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 320** **Bakı şəhəri, 4 avqust 2017-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, №7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, №11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın 14-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 14. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu |
| 14.1. | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin: |
| 14.1.1. | Dövlət Əmək Müfəttişliyi Xidməti, onun yerli bölmələri, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti |
| 14.1.2. | Dövlət Məşğulluq Xidməti, rayon (şəhər) məşğulluq orqanları, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti |
| 14.1.3. | Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti, onun tibbi-sosial ekspert komissiyaları, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti |
| 14.1.4. | Dövlət Sosial Müdafiə Fondu, onun yerli bölmələri |
| 14.1.5. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti |
| 14.2. | Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu |

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***